## Şəki Su və Kanalizasiya

| | |
|---|---|
| **Ölkə:** | AZƏRBAYCAN |
| **Layihə Nömrəsi:** | 56006 |
| **Biznes Sektoru:** | Su və Kanalizasiya Sistemləri – Infra Eurasia |
| **Bildiriş Növü:** | DÖVLƏT |
| **Ətraf mühit kateqoriyası:** | B |
| **Təsdiq tarixi:** | 13 May 2026 |
| **Status:** | Araşdırma mərhələsində |

### Layihənin Təsviri

Azərbaycan Respublikasına (Borcalan) su sektorunun idarə olunmasına cavabdeh olan dövlət qurumu – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (Su Agentliyi) xeyrinə 91 milyon avroya qədər (tranşlı) suveren kreditin verilməsi nəzərdə tutulur. Bank Şəki şəhərində və ətraf kəndlərdə su təchizatı, kanalizasiya və yağış sularının idarə olunması şəbəkələrinin, həmçinin Çirkab Sularının Təmizlənməsi Qurğusunun (ÇSTQ) bioloji təmizləmə bölmələrinin tikintisini dəstəkləyəcək (bundan sonra "Layihə").

### Layihənin Məqsədləri

Layihə, Şəki şəhərində və ətraf kəndlərdə (Oxud, Kiş və Qoxmuq) fasiləsiz su təchizatı və çirkab sularının idarə olunması xidmətlərini təmin etmək, eləcə də daşqın risklərini azaltmaq məqsədilə yağış sularının idarə olunması sistemlərinin genişləndirilməsi üçün müasir və dayanıqlı infrastrukturun inkişafını dəstəkləyəcək. Layihənin təmizlənməmiş çirkab sularından yaranan çirklənməni və emissiyaları azaltmaqla, səth sularının keyfiyyətini yaxşılaşdırmaqla və iqlim dəyişikliyi risklərinə qarşı dayanıqlılığı artırmaqla ətraf mühitə əhəmiyyətli müsbət təsir göstərməsi gözlənilir.

### Keçid Təsiri

GKT: 69

Keçid Təsiri "Yaşıl Keçid" və "Əhatəli Keçid" keyfiyyətləri vasitəsilə əldə olunacaq. Layihə Şəki şəhərində su təchizatı xidmətlərinin yaxşılaşdırılması, su itkilərinin azaldılması və çirkab sularının adekvat şəkildə təmizlənməsinin təmin edilməsi vasitəsilə **"Yaşıl keçid"** keyfiyyətinin təşviqinə kömək edəcək. **"Əhatəli Keçid"** keyfiyyəti çərçivəsində Layihə, Su Agentliyini Su və Kanalizasiya Şəbəkəsinin İstismarı, Ağıllı Su İdarəetmə Sistemləri və Tullantı Sularının İdarə Olunması və Təmizlənməsi üzrə qısamüddətli təlim proqramlarının hazırlanması və həyata keçirilməsində dəstəkləməklə, su sektorunda bazara uyğun texniki bacarıqlar və təlim imkanlarına çıxışı genişləndirməyi hədəfləyir.

### Əlavəlik

AYİB layihə üçün vacib olan, lakin kommersiya mənbələrindən bazarda əlçatan olmayan şərtlərlə maliyyələşdirmə təklif edir.

AYİB müştəriyə təbii kapital ehtiyatlarının tükənməsi, xammal və suyun əlçatanlığı ilə bağlı riskləri müəyyən etməklə ətraf mühit, sosial və idarəetmə (ƏMSİ) risklərini azaltmağa kömək edir.

Layihə təşkilatın kibertəhlükəsizlik dayanıqlığını artırmaq və ümumi idarəetmə təcrübələrini gücləndirmək məqsədilə müştərinin əsas İT maraqlı tərəfləri üçün təlimlər təşkil edəcək.

| |
|---|
| AYİB həmçinin Su Agentliyinə beynəlxalq satınalma standartlarını tətbiq etməklə daha yüksək standartlara nail olmaqda dəstək verir.<br><br>Su Agentliyi həmçinin sektora daha çox qadın cəlb etməklə öz fəaliyyətində gender bərabərliyinin daha yüksək standartlarını təşviq edəcək. |
| **Müştəriyə dair Məlumat** |
| Ad: Azərbaycan Respublikasının Suveren Layihəsi |
| Borcalan: Azərbaycan Respublikası, Maliyyə Nazirliyi tərəfindən təmsil olunur.<br><br>Layihənin İcraçı Tərəfi: Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi |

| **AYİB Maliyyələşdirməsi** |
|---|
| 91,000,000 avro<br><br>Kredit imzalanma zamanı öhdəliyə götürüləcək 57 milyon avro və daha sonrakı mərhələdə öhdəliyə götürüləcək 34 milyon avro məbləğində iki tranşa bölünür. |

| **Layihənin Ümumi Dəyəri** |
|---|
| 95,000,000 avro<br><br>Kredit Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığı (E5P) tərəfindən ayrılacaq 4 milyon avroya qədər investisiya qrantı ilə birgə maliyyələşdiriləcək. |

| **Ətraf Mühit və Sosial Xülasə** | | |
|---|---|---|
| ESD Yeniləmə Tarixi: | Texniki olmayan xülasə?: Bəli/Xeyr | Texniki Olmayan Xülasənin Tarixi: |
| Layihə 2019-cu il Ətraf Mühit və Sosial Siyasətinə əsasən “B” kateqoriyasına aid edilir. Layihə Şəki şəhərində və ətraf kəndlərdə su və kanalizasiya xidmətlərini yaxşılaşdıracaq, həmçinin iqlim risklərinə qarşı dayanıqlılığı artıracaq. Əsas ətraf mühit və sosial (“ƏMS”) risklər və təsirlərə daxildir: Müştərinin ƏMS potensialı və idarəetmə sistemləri, layihənin icrası zamanı əmək və iş şəraiti, podratçıların idarə olunması, tikinti ilə bağlı risklər, xüsusilə işçilərin və icmanın sağlamlığı və təhlükəsizliyi, səs-küyə, toza və vibrasiya səviyyələrinə məruz qalma; müvəqqəti giriş məhdudiyyətləri, torpaq sahələrinin alınması və bununla bağlı köçürmə və dolanışıq təsirləri; potensial biomüxtəliflik və mədəni irsə təsirlərin idarə olunması; ödəniş qabiliyyəti, gender və gender əsaslı zorakılıq (“GBVH”), maraqlı tərəflərlə əlaqə, şikayət mexanizmi və fövqəladə hallara cavab tədbirləri. Ətraf mühit və sosial təhlil (“ƏMST”) su ehtiyatlarının dayanıqlılığını qiymətləndirmək, layihənin içməli suyun keyfiyyəti, şəhər kanalizasiya təmizlənməsi və lilin idarə olunması üzrə milli və Aİ standartlarına uyğunluq səviyyəsini müəyyən etmək, həmçinin Müştərinin layihənin icrası və istismarı zamanı ƏMS risklərini adekvat şəkildə idarə etmək qabiliyyətini qiymətləndirmək məqsədilə Texniki-İqtisadi Əsaslandırma Tədqiqatının bir hissəsi kimi həyata keçiriləcək. ƏMST başa çatdıqdan sonra istənilən yumşaldıcı tədbirlər Ətraf Mühit və Sosial Fəaliyyət Planına (“ƏMSFP”) daxil ediləcək. Əgər layihənin hər hansı komponenti bufer zonasında və ya UNESCO Ümumdunya İrsi daxilində həyata keçiriləcəksə, Müştəri Mədəni İrsə Təsir Qiymətləndirilməsini həyata keçirəcək və Mədəni İrsin İdarə Edilməsi Planını (“MİİEP”) hazırlayacaq. Bu plan işlərə başlamazdan əvvəl tənzimləyici orqan və zərurət olduqda UNESCO Katibliyi ilə müzakirə ediləcək və razılaşdırılacaq. Müştərinin AYİB-in Performans Tələblərini (“PRs”) həyata keçirmək qabiliyyətinin məhdud olduğu nəzərə alınaraq, layihənin ƏMSFP-nin icrası üçün dəstəyə ehtiyac duyacağı gözlənilir. Layihə dövrü boyunca əsas maraqlı tərəflərlə məsləhətləşmələrin aparılmasını təmin etmək məqsədilə şikayət mexanizmini də əhatə edən maraqlı tərəflərlə əlaqə planı (“SEP”) hazırlanacaq. Müştəri SEP-in icrasını idarə etmək və şikayətləri qəbul etmək üçün baş əmək üzrə məsul şəxsi (“CLO”) təyin edəcək. ƏMST hal-hazırda davam edir və bu xülasə ƏMST tamamlandıqdan sonra əlavə olaraq yenilənəcək. | | |

| **Texniki Əməkdaşlıq** |
| --- |
| **Bu Layihə çərçivəsində aşağıdakı texniki əməkdaşlıq (TƏ) tapşırıqları nəzərdə tutulur:**<br>• Layihənin hazırlanması, Avropa İttifaqı tərəfindən Aİ-AYİB Azərbaycan üçün İqtisadi və İnvestisiya Planı Mexanizmi vasitəsilə maliyyələşdirilir.<br>• Rəqəmsal keçid planlarının hazırlanması üçün nəzərdə tutulmuş Rəqəmsal Transformasiyaya Dəstək Proqramı Tayvan Biznes – AYİB Texniki Əməkdaşlıq Fondu tərəfindən maliyyələşdirilir.<br>• Mədəni irs obyektləri üçün MİİEP-in hazırlanmasına dəstək məqsədilə Mədəni İrsə Təsir Qiymətləndirilməsi və Mədəni İrsin İdarə Edilməsi Proqramı (maliyyə mənbəyi təsdiqlənəcək).<br>• Su sektoru üçün hazırlanmış bacarıqların inkişafı proqramının hazırlanması (maliyyə mənbəyi təsdiqlənəcək).<br>• Təlim vasitəsilə kibertəhlükəsizlik potensialının artırılmasını dəstəkləmək üçün Kibertəhlükəsizlik Dayanıqlılığı Proqramı (maliyyə mənbəyi təsdiqlənəcək).<br>Layihə E5P tərəfindən ayrılacaq 4 milyon avroya qədər investisiya qrantı ilə birgə maliyyələşdiriləcək. |

| **Şirkətlə Əlaqə Məlumatı** | |
| --- | --- |
| Əlaqəli şəxs: | Fuad Abışev |
| Telefon: | +994 12 430 25 78 |
| Website: | https://adsea.gov.az/ |
| Email: | fuad.abishev@toom.gov.az |
| Fax: | N/A |
| Ünvan: | 67 Moskva Pr, Bakı 1012, Azərbaycan |

**Keçidin öyrənilməsi**

Keçid təsirinin qiymətləndirilməsi ilə bağlı AYİB-in yanaşmasına dair əlavə məlumatları buradan əldə edə bilərsiniz.

**Biznes imkanları**

Biznes imkanları və ya satınalma məsələləri ilə bağlı sifarişçi şirkətlə əlaqə saxlayın.

AYİB ilə (satınalmadan sair mövzuda) biznes imkanları üçün aşağıdakı vasitələrlə əlaqə saxlayın:

Tel: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

Dövlət sektoru layihələri ilə bağlı AYİB Satınalmalar səhifəsinə daxil olun:

Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

**Ümumi müraciətlər**

Xüsusi müraciətlər AYİB Müraciət blankı vasitəsilə edilə bilər.

**Ətraf Mühit və Sosial Siyasət (ƏMSS)**

ƏMSS və müvafiq Fəaliyyət tələbləri (FT-lər) AYİB-in “ətraf mühitin mühafizəsi sahəsində düzgün və dayanıqlı inkişaf” strategiyasının təşviqi öhdəliyinin icra metodlarını müəyyənləşdirir. ƏMSS-yə və FT-lərə müştərilərin ictimai məlumat və məsləhət üzrə dövlət qanunlarının tətbiq olunan tələblərinə cavab vermək, eləcə də maraqlı

tərəflərin, xüsusilə də müştərinin və layihənin ətraf mühit və sosial göstəricilər sahəsində narahatlıqlarını və şikayətlərini qəbul etmək və həllini sürətləndirmək üçün şikayətlərin baxılması mexanizminin müəyyən edilməsi üçün xüsusi müddəalar daxildir. AYİB əlavə olaraq layihənin ətraf mühit və sosial risklərinin və təsirlərinin xarakterinə və miqyasına uyğun olaraq müştərilərindən layihələrdə yaranan risk və təsirlər barədə müvafiq məlumatları açıqlamağı və ya maraqlı tərəflərlə hərtərəfli məsləhətləşmə aparmağı və onların düşüncələrini nəzərə alaraq onlara cavab verməyi tələb edir.

AYİB-in bu sahədə təcrübələrinə dair ətraflı məlumat ƏMSS səhifəsində verilmişdir.

**Düzgünlük və Uyğunluq**

AYİB-in Uyğunluq üzrə Baş direktorunun Ofisi (UBDO) yaxşı idarəetməni təşviq edir və Bankın bütün əməliyyatlarında qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq ən yüksək düzgünlük standartlarının tətbiqini təmin edir. Layihələrin icrası zamanı qeyri-məqbul düzgünlük və ya reputasiya ilə bağlı risklərə yol verməmək üçün Bank bütün müştərilərinin düzgünlük sahəsində hüquqi yoxlamasını aparır. Bank hesab edir ki, layihələrin qiymətləndirilməsi və təsdiqlənməsi mərhələlərində problemlərin müəyyən və həll edilməsi Bank əməliyyatlarının düzgünlüyünün təmin olunması üçün ən effektiv üsuldur. UBDO bu qabaqlayıcı tədbirlərdə mühüm rol oynayır və eləcə də investisiya qoyuluşundan sonra layihələrin düzgünlük sahəsində risklərinə nəzarətdə kömək edir.

UBDO həmçinin AYİB-in maliyyələşdirdiyi layihələrdə saxtakarlıq, korrupsiya və qeyri-məqbul davranışla bağlı iddiaların araşdırılmasına görə məsuliyyət daşıyır. Bankın daxilində və ya xaricində saxtakarlıq və ya korrupsiya halları ilə bağlı şübhəsi olan hər bir şəxs compliance@ebrd.com e-poçt ünvanı vasitəsilə Uyğunluq üzrə Baş direktora yazılı şəkildə müraciət etməlidir. Məruzə olunan bütün məsələlər UBDO tərəfindən araşdırılacaqdır. Bütün müraciətlər, o cümlədən anonim müraciətlər nəzərdən keçiriləcəkdir. Müraciətlər Bankda istifadə olunan və ya Bankın fəaliyyət göstərdiyi ölkələrin dilində edilə bilər. Məlumatlar dürüst şəkildə təqdim edilməlidir.

**İnformasiya Əlçatanlığına dair Siyasət (İƏS)**

İƏS AYİB-in informasiyanı açıqlama qaydasını və 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvəyə mindikdən sonra bankın strategiya, siyasət və əməliyyatları sahəsində maariflənməni və anlayışı artırmaq üçün maraqlı tərəflərlə məsləhətləşmə qaydalarını müəyyən edir. AYİB-in veb-saytında mövcud olan məlumatları əldə etmək üçün İnformasiya Əlçatanlığına dair Siyasət səhifəsinə daxil ola bilərsiniz.

İnformasiya əldə etməklə bağlı xüsusi müraciətlər AYİB Müraciət blankından istifadə etməklə göndərilə bilər.

**Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM)**

Ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı narahatlıqların Müştəri və ya Bankla həll edilməsi cəhdləri uğursuz olduğu təqdirdə (məs., Müştərinin Layihə səviyyəli şikayətlərinin baxılması mexanizmi və ya Bankın rəhbərliyinə birbaşa müraciət vasitəsilə) fiziki şəxslər və təşkilatlar onları narahat edən məsələləri AYİB-in Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM) vasitəsilə bildirə bilərlər.

LMHM zərər verdiyi ehtimal olunan (və ya zərər vermə ehtimalı olan) Layihə məsələlərini müstəqil şəkildə nəzərdən keçirir. Bu Mexanizmin məqsədi ətraf mühit, sosial və ya ictimai məlumatların açıqlanması ilə bağlı yaranan problemlərin həlli istiqamətində Layihənin maraqlı tərəfləri arasında dialoqu dəstəkləmək, Bankın özünün Ətraf Mühit və Sosial Siyasətinə və ya İnformasiya Əlçatanlığına dair Siyasətinin Layihəyə aid müddəalarına əməl edib-etmədiyini müəyyən etmək və Bankın gələcəkdə uyğunsuzluq hallarına yol verməməsi üçün aidiyyəti üzrə bu siyasətlərə riayət olunmama hallarını aradan qaldırmaqdır.

LMHM və onun səlahiyyətləri haqqında daha ətraflı məlumat əldə etmək, Yenidən baxılması üçün müraciətin qaydalarını öyrənmək üçün Layihənin Müstəqil Hesabatlılıq Mexanizminin veb-səhifəsinə daxil olmağınız və ya LMHM və müraciət etmək barədə təlimat və əlavə məlumat əldə etmək üçün ipam@ebrd.com e-poçt vasitəsilə LMHM ilə əlaqə saxlamağınız xahiş olunur.